

# POLİS

AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİNİN ORQANI

www.pq.mia.gov.az

polisazerbaycan

28 avqust 2025-ci il
Cümə axşamı

1933-cü ildən çıxır
№ 33 (3745)

# Strateji tərəfdaşlıq güclənir

**Türk dövlətləri ilə münasibətlərin inkişaf etdirilməsi Azərbaycanın xarici siyasətində prioritet istiqamətlərdəndir. Son illərin siyasi mənzərəsi ondan ibarətdir ki, respublikamızın Türkiyə, Özbəkistan, Qazaxıstan, Qırğız, Türkmənistan, Şimali Kipr Türk Cümhuriyyəti ilə münasibətləri özünəməxsusluğu ilə fərqlənməklə, daha da genişlənib, yeni istiqamətləri əhatə edib. Bu da xalqımızın sözügedən dövlətlərin xalqları ilə ortaq dəyərləri bölüşməsindən irəli gəlir.**




## Dərinləşən münasibətlər daha böyük uğurları hədəfləyir

Prezident İlham Əliyevin Türkmənistan Xalq Məsləhətinin Sədri Qurbanqulu Berdiməhəmmədovun dəvəti ilə avqustun 22-də Türkmənistana işgüzar səfəri Azərbaycan, Türkmənistan və Özbəkistan arasındakı üçtərəfli əməkdaşlıq formatı münasibətlərdə yeni səhifə açmaqla yanaşı, həm də Azərbaycanın türk dövlətləri ilə münasibətlərinin daha da inkişafına və genişlənməsinə verdiyi xüsusi önəmin təcəssümüdür.

> *İlham ƏLİYEV: "Xalqlarımızı dərin qardaşlıq ənənələri birləşdirir"*

Türkmənbaşı şəhərində keçirilən Türkmənistan Respublikası, Azərbaycan Respublikası və Özbəkistan Respublikası arasında yüksəksəviyyəli görüş yalnız bu dövlətlər deyil, bütün türk dünyası üçün mühüm siyasi hadisəyə çevrildi. Bu görüş bir daha təsdiq etdi ki, türk dövlətləri onların inkişafına, əməkdaşlıq əlaqələrinin genişlənməsinə yol açan, o cümlədən qlobal və regional aktuallıq kəsb edən bütün məsələlərdə hər zaman ortaq mövqe nümayiş etdirirlər.

Sürətlə dəyişən və yenilənən regional və qlobal əməkdaşlıq imkanları olduqca mühüm və strateji coğrafiyada yerləşən türk dövlətlərinin qarşısında yeni prioritetlər formalaşdırır. Bu fonda görünən odur ki, türk dövlətləri çağdaş reallıqları və meydana çıxan çağırışları düzgün dəyərləndirərək, həm özlərinin inkişafına, həm də aralarındakı tərəfdaşlıq əlaqələrinin daha da güclənməsinə xidmət edən addımlar atırlar.

Türk dövlətlərini birləşdirən Türk Dövlətləri Təşkilatı son illərdə fəaliyyətini daha da gücləndirərək nüfuzlu regional təşkilata çevrilib. Türk Dövlətləri Parlament Assambleyası, TÜRKSOY, Türk Akademiyası, Türk Mədəniyyəti və İrsi Fondu kimi qurumların fəaliyyəti sayəsində üzv ölkələr arasında əlaqələr sürətlə genişlənib.

Öz növbəsində Azərbaycanın həyata keçirdiyi layihələr istər regional, istərsə də, qlobal müstəvidə strateji məzmun daşımaqla, həm də türk dövlətlərinin beynəlxalq iqtisadi inteqrasiyasına, onların ixrac əməliyyatlarının çoxalmasına böyük təkan verib. Respublikamızın təşəbbüsü ilə ərsəyə gələn Bakı-Tbilisi-Qars dəmir yolu xətti Avropanı Asiya ilə birləşdirən nəhəng infrastruktur olmaqla bərabər, Mərkəzi Asiya dövlətlərinin ixrac imkanlarının genişlənməsinə də mühüm təsir göstərib. Göründüyü kimi, Azərbaycanın nəqliyyat və enerji dəhlizləri ilə bağlı həyata keçirdiyi layihələr həm də türk dövlətlərinin milli mənafelərinin qorunmasına xidmət edir, regional və qlobal proseslərdə türk dünyasının mövqelərinin güclənməsini şərtləndirir.

Avqustun 22-də Türkmənistan, Azərbaycan və Özbəkistan arasında yüksəksəviyyəli görüşün keçirilməsi türk dövlətləri arasında əməkdaşlığın genişləndirilməsinə xidmət edən mühüm siyasi təşəbbüsdür.

Bu görüş üç türk dövləti arasındakı münasibətlərdə yeni səhifə açır, əlaqələrin gedişini yeni keyfiyyət mərhələsinə yüksəldir.

Prezident İlham Əliyevin Türkmənistana səfəri onu deməyə əsas verir ki, indi dost və qardaş ölkələr olan Azərbaycan, Türkmənistan və Özbəkistan arasında həm də yeni əməkdaşlıq formatı yaranır. Prezident İlham Əliyevin qeyd etdiyi kimi "Biz xalqlarımızın mədəni və tarixi yaxınlığına, ortaq dəyərlərə və strateji maraqlara əsaslanaraq, üç dost və qardaş dövlətin əməkdaşlığı tarixində yeni bir səhifə açırıq".

Bu görüş Azərbaycan, Türkmənistan və Özbəkistanın öz milli mənafeləri naminə strateji tərəfdaşlığın dərinləşdirilməsinə yönəlmiş möhkəm siyasi iradə nümayiş etdirdiklərini göstərdi.

# Prezident paylaşım edib

## İkitərəfli əlaqələrin daha bir parlaq təzahürü

Prezident İlham Əliyev Amerika Birləşmiş Ştatlarının Prezidenti Donald Trampın hədiyyəsi ilə əlaqədar sosial media hesablarında paylaşım edib.

"Prezident Donald Trampa şəxsi imzası ilə mənə hədiyyə etdiyi tarixi fotoşəkillərə və üzərində yazdığı xoş sözlərə görə təşəkkür edirəm. Donald Trampın Azərbaycan ilə Ermənistan arasında münasibətlərin normallaşdırılmasına, habelə Cənubi Qafqazda və dünyada sülh gündəliyinə verdiyi qətiyyətli dəstəyini yüksək qiymətləndirir və buna görə ona bir daha dərin minnətdarlığımı bildirirəm", - paylaşımda qeyd olunur.

# Prezidentin qəbulu

## Perspektivlər müzakirə olunub

Prezident İlham Əliyev avqustun 25-də Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Avropa, Şimali Amerika və xaricdəki ərazilər üzrə dövlət naziri Stiven Doutini qəbul edib. Stiven Douti Vaşinqtonda Azərbaycanla Ermənistan arasında sülh gündəliyinin irəli aparılması ilə əlaqədar əldə olunmuş tarixi nəticələr münasibətilə dövlətimizin başçısına təbriklərini çatdırıb, ölkəsinin bu prosesə dəstək verməyə hazır olduğunu bildirib.

Söhbət zamanı Azərbaycanla Böyük Britaniya arasında iqtisadi, ticari, informasiya-kommunikasiya texnologiyaları, təhsil və digər sahələrdə əməkdaşlıq üçün geniş perspektivlərin olduğu bildirilib, siyasi münasibətlərimizin mövcud vəziyyətindən məmnunluq ifadə olunub.

# Ölkələrimiz həmrəydir

## Dövlət başçısı məktub ünvanlayıb

Prezident İlham Əliyev avqustun 21-də 24 avqust-Ukrayna Respublikasının Müstəqillik Günü münasibətilə Prezident Zati-aliləri cənab Volodimir Zelenskiyə öz adından və Azərbaycan xalqı adından təbrik məktubu ünvanlayıb.

Dövlətimizin başçısı tərəflər arasındakı siyasi dialoqu, iqtisadiyyat, nəqliyyat, energetika və humanitar sahələrdəki əməkdaşlığı yüksək qiymətləndirib. Qeyd olunub ki, ərazi bütövlüyü və suverenlik məsələlərində ölkələrimizin beynəlxalq hüququn norma və prinsiplərinə uyğun olaraq qarşılıqlı dəstək və həmrəylik nümayiş etdirməsi təqdirəlayiqdir. Azərbaycan dost Ukrayna xalqına bundan sonra da lazımi humanitar dəstək və yardım göstərməyə davam edəcəkdir.

# Qarabağda tarixin yeni mərhələsi

## Azərbaycanın məqsədi regionda sülh və gözəl rifahdır

Müzəffər Ali Baş Komandanın Vətən müharibəsindən sonra müəyyənləşdirdiyi hədəflər artıq gerçəkliyə çevrilir. Prezident İlham Əliyev avqustun 20-də Gəncəyə və Qarabağa səfəri çərçivəsində bir sıra obyektlərin açılış mərasimində iştirak edib, işğaldan azad olunmuş ərazilərdə görülən işlərin icra vəziyyəti ilə tanış olub, böyük qayıdışın daha tez şəkildə gerçəkləşməsi üçün tapşırıq və tövsiyələrini verib.

Gəncə səfəri çərçivəsində dövlət başçısı və birinci xanım ümummilli lider Heydər Əliyevin abidəsini ziyarət edib, şəhərdə aparılan genişmiqyaslı abadlıq işləri ilə tanış olublar.

Qeyd olunub ki, 120-dən çox küçə yenidən asfaltlanıb, yüzlərlə binanın dam örtüyü və fasadı təmir edilib, parklar, fontanlar və yaşıllıq sahələri bərpa olunub. Prezident İlham Əliyev həmçinin Gəncədə inşası davam edən Memorial Kompleksdə görülən işlərlə tanış olub. Kompleksin yaxın vaxtlarda tamamlanacağı və şəhərin simasında mühüm yer tutacağı bildirilib.

Səfər zamanı şəhərdə keçiriləcək III MDB Oyunlarına hazırlıq tədbirləri də diqqət mərkəzində olub. İdman infrastrukturu, işıqlandırma və ictimai obyektlərdə yenidənqurma işləri sürətləndirilib.

Avqustun 21-də Prezident İlham Əliyev Qarabağa səfər edərək Kəlbəcər və Ağdərə rayonlarında icra olunan layihələrin gedişini izləyib.

Dövlət başçısı Toğanalı–Kəlbəcər–İstisu avtomobil yolunun tikintisi ilə tanış olub. Məlumat verilib ki, yolun istifadəyə verilməsi həm turizm potensialının artmasına, həm də regionun sosial-iqtisadi inkişafına töhfə verəcək.

Prezident həmçinin İstisu kurort kompleksində, yeni yaşayış məhəllələrində və enerji infrastrukturu sahəsində görülən işlərlə maraqlanıb, doğma yurd-yuvasına köçən sakinlərlə görüşüb, Qarabağın kəndlərində aparılan bərpa və quruculuq işlərinin sürətləndirilməsi üçün tapşırıqlarını verib.

Bu səfərlər Azərbaycanın həm qədim şəhəri Gəncədə, həm də azad edilmiş Qarabağımızda aparılan yenidənqurma və inkişaf proseslərinin dövlətin birbaşa nəzarətində olduğunu göstərir.

Prezident İlham Əliyevin qeyd etdiyi kimi, ölkənin hər bir bölgəsində həyatın yenidən canlandırılması Azərbaycan dövlətinin əsas prioritetidir.

Şübhəsiz ki, qısa müddətdə bu torpaqlara qayıdışı reallaşdırmaq böyük iqtisadi gücün, xalqımızın yenilməzliyinin təqdimatıdır. Dövlət başçısı İlham Əliyevin yeni dövrə qədəm qoyan Azərbaycanın reallıqlarından bəhs edərkən böyük qürur hissi ilə qeyd etdiyi kimi, biz bu gün Ağdamdayıq, Füzulidəyik, Laçındayıq, Cəbrayıldayıq, Zəngilandayıq, Qubadlıdayıq, Kəlbəcərdəyik, Şuşadayıq, Hadrutdayıq, Xocalıdayıq, Ağdərədəyik, Əsgərandayıq, Xankəndidəyik!

# Fərman və sərəncamlar

*Prezident İlham Əliyev avqustun 22-də xidməti vəzifələrini yerinə yetirərkən fərqləndiklərinə görə Azərbaycan Respublikası Dövlət Mühafizə Xidmətinin hərbi qulluqçularının təltif edilməsi ilə bağlı Sərəncam imzalayıb.*

*Prezident İlham Əliyev avqustun 25-də Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 13 fevral tarixli 593 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə Fərman imzalayıb.*

*Prezident İlham Əliyev avqustun 25-də 2025-ci ildə Bakı şəhərində keçiriləcək Formula 1 yarışı ilə əlaqədar Azərbaycan Respublikasına gələn əcnəbilər və vətəndaşlığı olmayan şəxslər üçün viza prosedurlarının sadələşdirilməsi haqqında Sərəncam imzalayıb.*

Profilaktik fəaliyyət vacibdir....................2
Hədəfimiz bəllidir....................................2
Uğur hekayəsi döyüşlərdə yazılıb.........3
Amerikanın ilk qadın detektivi...............4

# Daxili işlər naziri vətəndaş qəbulu keçirəcək

## Vətəndaşlar polisin səlahiyyətlərinə aid məsələlərlə bağlı müraciət edə bilərlər

Azərbaycan Respublikasının daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov tərəfindən 2025-ci il avqust ayının 29-da Xaçmaz Rayon Polis Şöbəsinin inzibati binasında Quba, Qusar, Xaçmaz, Şabran, Siyəzən və Xızı şəhər və rayonlarının sakinlərinin qəbulu keçiriləcək.

Qəbula yazılmaq istəyən vətəndaşlar Daxili İşlər Nazirliyinin səlahiyyətlərinə aid məsələlərlə bağlı 28.08.2025-ci il tarixədək yaşadıqları ərazinin polis orqanına, habelə DİN-in mia.gov.az internet saytı vasitəsilə və sosial şəbəkələrdəki səhifələrinə müraciət edə bilərlər.

# Respublika Xəbərləri

### Xıdırlıya köç var...

Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq, işğaldan azad edilmiş ərazilərə Böyük Qayıdış davam etdirilir. Bu mərhələdə Ağdam rayonunun Xıdırlı kəndinə daha 104 ailə - 370 nəfər köçürülüb. Qeyd edək ki, hazırda Qarabağda və Şərqi Zəngəzurda, ora köçürülən keçmiş məcburi köçkünlərlə yanaşı, bu bölgədə aparılan layihələrin icrasında çalışan, həmçinin ayrı-ayrı dövlət qurumlarının yerli bölmələrində xidməti vəzifələrini yerinə yetirən, yenidən fəaliyyətə başlamış səhiyyə, təhsil, mədəniyyət, turizm, sənaye, energetika müəssisələrində işləyən, ümumilikdə, 50 mindən çox insan yaşayır.

### Laçının bərpa planları hazırlanır

Bu barədə Laçın rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Məsim Məmmədov jurnalistlərə açıqlamasında deyib. Onun sözlərinə görə, Laçın şəhərinin bərpasının birinci mərhələsi başa çatıb. "2027-2030-cu illər üçün Dövlət Proqramı əsasında bərpa planları hazırlayırıq. Buna uyğun olaraq, Laçın rayonu ərazisində 20-dən çox yeni məntəqənin tikintisi nəzərdə tutulur".

### Xankəndidə forum keçirilib

Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin ICESCO ilə birgə "Gənclər çoxmədəniyyətli mühitdə sülh quruculuğunun elçiləri kimi" mövzusunda keçirdiyi II Beynəlxalq Multikulturalizm Gənclər Forumu öz işini Xankəndi şəhərində davam etdirir. Forumun iştirakçıları avqustun 24-də Xankəndi şəhərinə gələrək, burada aparılan abadlıq-quruculuq işləri ilə tanış olublar. Daha sonra Forum iştirakçıları BBMM-in şöbə müdiri İrina Kuninanın "Azərbaycan Multikulturalizm modelinin xüsusiyyətləri" mövzusunda mühazirəsini dinləyiblər. Mühazirə Forum iştirakçıları tərəfindən maraqla qarşılanıb və müzakirələrlə davam edib. Xatırladaq ki, müxtəlif ölkələrdən olan gəncləri bir araya gətirərək multikultural dəyərlərin təşviqi, mədəniyyətlərarası dialoqun inkişafı və dinlərarası anlaşmanın möhkəmləndirilməsinə töhfə vermək məqsədi daşıyan II Beynəlxalq Multikulturalizm Gənclər Forumunda dünyanın 50-dən çox ölkəsindən 70-dək qonaq iştirak edir.

### Avaran kəndinə su çəkilib

"Regional İnkişaf" İctimai Birliyinin təşəbbüsü və bp şirkətinin maliyyə dəstəyi ilə Qusar rayonunun Avaran kəndində müasir içməli su təchizatı infrastrukturunun açılış mərasimi keçirilib. Layihənin reallaşdırılması üçün Cağar Çibir su kanalından kəndə 1,4 kilometr məsafədən xətt çəkilib. 10 min kubmetr həcmində sututar və 2 min kubmetr həcmində lil çökdürmə hovuzu yaradılıb. Obyektdə nasosxana və filter məntəqəsi tikilərək qurğu və avadanlıqlarla təchiz edilib, transformator, 3 mərhələli filter sistemi, motorlar, su çənləri və sayğaclar quraşdırılıb. Layihənin birinci hissəsinin icrası çərçivəsində kənddaxili şəbəkə qurularaq 125 ev təsərrüfatının su təchizatı təmin edilib. İlin sonunadək kəndin qalan 263 ev təsərrüfatına da daxili su xətləri çəkiləcək və sayğaclar quraşdırılacaq.

# Profilaktik fəaliyyət vacibdir

## Gənclərlə, yeniyetmələrlə sağlam ünsiyyət etimad mühiti formalaşdırır

Yeniyetmələrin, uşaqların riskli davranışları, xoşagəlməz hallara səbəb olmaları cəmiyyətdə birmənalı qarşılanmır. Şübhəsiz ki, burada yaş faktorunu, sosial mühiti və psixoloji amilləri nəzərdən qaçırmaq olmaz. Ancaq bir neçə gün öncə Gəncədə bir yeniyetmənin öz həmyaşıdını bıçaqla qətlə yetirərək cinayət törətməsi nəzarət mexanizmlərinin daha da sərtləşməsini şərtləndirir.

Müzakirə mövzusuna çevrilən fakta münasibət bildirən mütəxəssislər bu kimi cinayətlərin törədilməsini müxtəlif səbəblərlə izah ediblər. Lakin məsələnin görünən tərəfi odur ki, bu cür insidentlərdə zərərçəkmiş tərəflərin ailələri olmur, bu həm də cəmiyyət həyatına birbaşa təsir edən risklərlə müşahidə olunur. Odur ki, gənclərin aqressiyaya meyilli davranışlarının kökləri, sosial mühitin təsiri və psixoloji amillər bu mövzunun dərin araşdırılmasını tələb edir.

**Mütəxəssislər nə deyir?**

Sosioloq Elçin Bayramlının fikrincə uşaqların və yeniyetmələrin düzgün formalaşmaması, gənclərin məşğuluğunun təmin edilməməsi onları bir çox xoşagəlməz hallara meylləndirir. Belə olan halda aqressiv xarakterli filmlər, qəddarlığı təbliğ edən kompüter oyunları uşaqların şüuraltına təsir göstərir, aqressiv davranışları gücləndirir. Belə uşaqlar real həyatda da rahatlıqla cinayət törədə bilirlər.

Sosioloq Nailə İsmayılova isə bildirib ki, müasir dövrdə texnologiyanın sürətli inkişafı ilə yanaşı, sosial şəbəkələrin təsiri həm böyüklərin, həm də uşaqların həyatında ciddi dəyişikliklər yaradıb: "Bəzi valideynlər uşaqlarına diqqət yetirmir, bəzən isə bunu istəmirlər və ya imkansızlıqdan edə bilmirlər. Nəticədə uşaq sosial şəbəkələrin təsiri altında qalır, özünü nəzarətsiz bir mühitdə tapır".

**Riskləri polis necə önləyir?**

2025-ci ilin altı ayı ərzində yetkinlik yaşına çatmayanlar tərəfindən respublika üzrə 209 cinayət hadisəsinin törədilməsi faktı qeydə alınıb. Polis orqanlarının yeniyetmələr arasında cinayətlərin qarşısını almaq üçün profilaktik fəaliyyəti və bu istiqamətdə cari ilin müvafiq dövrü ərzində görülən işlər isə xüsusilə diqqət çəkir. Belə ki, törədiləcək cinayət hadisələrinin qarşısının alınması ilə bağlı polis əməkdaşları tərəfindən məktəb və digər təhsil müəssisələrində 10 mindən çox şagirdin, tələbənin iştirakı ilə keçirilən maarifləndirmə tədbirlərinə 82 mütəxəssis, 70 psixoloq, 68 təmsilçi dəvət olunub. Eyni zamanda müvafiq dövr ərzində üzərində kəsici, deşici alətlər gəzdirən azyaşlıların, yeniyetmələrin müyyən edilməsi ilə bağlı Daxili İşlər, eləcə də Elm və Təhsil nazirliklərinin regional şöbələrinin əməkdaşları məktəblərdə 1100-dən artıq birgə monitorinqlər keçirib, yoxlamalar aparıblar. Keçirilən tədbirlər nəticəsində kəsici-deşici alətlər, eləcə də istifadəsi qadağan olunmuş əşyalar müəyyən olunub. Gəlinən nəticə budur ki, şübhəli halların vaxtında aşkarlanması cinayətlərin qarşısını almağa kömək edir. Eləcə də risk qrupuna aid olan uşaqların müəyyənləşdirilməsi və onların sosial adaptasiyasına dəstək göstərilməsi xüsusi əhəmiyyət daşıdığı kimi, maarifləndirmə və təbliğat işi də bu məsələdə təsirli vasitələrdəndir.

Məktəb, həmçinin ailə ilə əməkdaşlıq nəzarət və risklərin müəyyənləşdirilməsində mühüm rol oynayır və bu həmin fəaliyyəti həyata keçirən polis orqanlarının diqqət mərkəzindədir.

Bütün münasibətlərin ünsiyyət üzərində formalaşdığını nəzərə alaraq hesab edirik ki, gələcəyimizin psixoloji gərginliklə yüklənmiş, cinayətə meylli gəncliklə sınağa çəkilməməsi üçün hər birimiz gənclər, yeniyetmələr arasında etimadı gücləndirməli, onları yalnız cəza tədbirləri ilə deyil, profilaktika, maarifləndirmə və sosial dəstək vasitəsi ilə cəmiyyətin dayağına, hərəkətverici qüvvəsinə çevirməliyik.

*"Polis"*

# BDYPİ-dən çağırış

## Yolu yalnız müəyyən olunmuş yerlərdən keçin

Yol hərəkəti qaydalarına laqeyd yanaşma faciə ilə nəticələnir. Müəyyən olunmamış yerdən yolu keçməyə cəhd edən piyadanın və düzgün ara məsafəsi saxlamayan sürücünün məsuliyyətsiz davranışı təəssüflər olsun ki, ölümlərə yol açır.

Baş Dövlət Yol Polisi İdarəsinin çağırışında qeyd olunur ki, hər bir hərəkət iştirakçısı unutmamalıdır ki, qaydalara riayət etməklə yalnız özünün deyil, eyni zamanda, digər insanların da təhlükəsizliyini qorumuş olur. Piyadaların yolu müəyyən olunmuş yerlərdən - piyada zolaqlarından, yeraltı və yerüstü keçidlərdən keçməsi, sürücülərin isə yol şəraitinə uyğun sürət seçməsi və ara məsafəsini saxlaması qanunun tələbidir. Bu tələblərə əməl edilməməsi isə ağır nəticələrə gətirib çıxarır.



BDYPİ bir daha xatırladır ki, piyadaların yolun istənilən hissəsindən keçməsi həyat üçün ciddi təhlükə yaradır. Keçidə daxil olmazdan əvvəl mütləq şəkildə yol vəziyyətini dəyərləndirmək, yaxınlaşan nəqliyyat vasitələrinin sürətini və dayana bilmə imkanlarını nəzərə almaq lazımdır. Yolu qəfil və ya gözlənilmədən keçməyə çalışmaq həm piyada, həm də sürücülər üçün böyük risk yaradır. "Yolu keçərkən diqqətinizi tamamilə hərəkətə yönəldin. Mobil telefondan, qulaqcıqlardan və diqqəti yayındıran digər vasitələrdən istifadə etməyin. Hətta piyada keçidindən istifadə etdiyiniz halda belə, yalnız sürücünün sizi gördüyünə və dayana biləcəyinə əmin olduqdan sonra yolu keçin. Unutmayın, təhlükəsizlik sürücülərin, eləcə də piyadaların diqqətindən və məsuliyyətindən asılıdır. Qaydalara əməl etməklə siz özünüzün və ətrafınızdakı insanların həyatını qoruyursunuz", - deyə çağırışda vurğulanıb.

# Hədəfimiz bəllidir

## Məhəlli görüşləri mübarizənin kəsərini artırır

Sabunçu RPİ Yetkinlik yaşına çatmayanlarla profilaktik işin təşkili bölməsinin əməkdaşları narkomaniya ilə mübarizə məqsədilə məhəllələrdə görüşləri davam etdirirlər.

Rayon ərazisindəki parklarda, həyətlərdə sakinlərlə, xüsusən, yeniyetmələrlə maarifləndirici söhbətlər aparan polis əməkdaşları narkotik maddələrin insan orqanizmində və cəmiyyətdə yaratdığı fəsadlardan danışıblar. Gənclərə diqqətlərini təhsilə yönəltmələrini, onların inkişafı üçün dövlətimiz tərəfindən yaradılan şəraitdən maksimum istifadə etmələrini, idmanla məşğul olmalarını və hüquqazidd əməllərdən çəkinməyi tövsiyə edən həmkarlarımız onları maraqlandıran sualları cavablandırıblar.

Maarifləndirici aksiyanın gənclərin qorunmasında əhəmiyyətli olduğunu deyən rayon sakinləri polisin bu istiqamətdəki fəaliyyətini təqdir ediblər.

*Gümüş Kazımzadə*
*polis leytenantı*

# İnam belə yaranır

## Yazılanlar fədakar əməyin təcəssümüdür

Saatlı rayon sakini Nəsir Nəsirov DİN-ə ünvanladığı təşəkkür məktubunda xidməti vəzifələrini və peşə fəaliyyətlərini layiqincə yerinə yetirdiklərinə görə başda DİN rəhbərliyi olmaqla, Saatlı RPŞ-nin rəhbərliyinə və əməkdaşlarına təşəkkür edir.

Vətəndaş Cəfər Məmmədov Daxili İşlər Nazirliyinin sosial şəbəkə səhifəsinə yazdığı mesajında baş vermiş oğurluq hadisəsilə bağlı müraciətinə dərhal baxılaraq operativ tədbirlərlə cinayətkarın saxlanılmasında göstərdikləri köməkliyə görə Xətai RPİ-nin kollektivinə təşəkkürünü bildirir.

Sosial şəbəkə istifadəçisi Tural Salmanov xəsarət ilə nəticələnən yol-nəqliyyat hadisəsilə bağlı obyektiv araşdırma aparılmasına və göstərilən köməkliyə görə Nərimanov Rayon Polis İdarəsinin rəhbərliyinə minnətdarlıq edir.

Sosial şəbəkə istifadəçisi Elnur Babayev müraciətinə operativ baxılmasına və probleminin qısa müddətdə müsbət həllini tapmasında göstərilən köməkliyə görə Yasamal RPİ-nin rəhbərliyinə təşəkkürünü bildirir.

Vətəndaş Temuraz Əhmədov müraciətinin müsbət həll olunmasına görə Nəsimi RPİ-nin əməkdaşlarına minnətdarlığını bildirir.

Şəki rayon sakini İmran Saatov müraciətinin müsbət həll olunmasına görə, DİN rəhbərliyinə və Şəki ŞRPŞ-nin əməkdaşlarına minnətdarlığı bildirir.

Sosial şəbəkə istifadəçisi Murad Qasımov baş vermiş yol-nəqliyyat hadisəsilə bağlı obyektiv araşdırma aparılmasına və göstərilən köməkliyə görə Nərimanov Rayon Polis İdarəsinin rəhbərliyinə minnətdarlığını bildirir.

# Uğur hekayəsi döyüşlərdə yazılıb

## İndi də keşikdədir, asayişin keşiyində...

Müharibə odlu bir köynəkdir, onu hamı əyninə geyinə bilmir. Müharibənin nəticəsini əvvəlcədən görmək mümkündür. Söhbət qalib və məğlub olmaqdan getmir. Bais olduğu ölümlər, qan-qada onun əsl mahiyyətini üzə çıxarır. Yəni müharibə varsa ölüm qaçılmazdır.

Dalaşmaq, dava etmək, döyüşmək anlayışı fərdlərə deyil, topluya, kütləyə, xalqlara, dövlətlərə şamil olunanda onun miqyasının genişlənməsi mənasını dəyişir, ən çox da anaların qorxduğu sözə-müharibəyə çevrilir.

"Qorxuram"ı heç bir ata dilinə gətirməz. Əsl qorxu doğmasını, əzizini itirəndən sonra başlayar. Yanında yeri boş qalar, dilində adı qabar bağlayar, bax onda ataların ürəyi çox yaşamaq qorxusuna təslim olar...

### Xalq sınağa çəkilirdi

Müharibənin odlu küresinin bir qərinə öncə Azərbaycanda yaxıb-yandırmadığı yer, ürək qalmadı. Xalqımızın sınağına çevrilən bu bəla əsrdən-əsrə, nəsildən-nəslə keçdi. Yenə də canlar aldı, qanlar töküldü. İşğal nəticəsində odlara qalanan kəndlərin, şəhərlərin əhalisi canlarını dişində götürüb qaça bilsələr də illərlə məcburi köçkün adı, damğası ilə yaşadılar.

Əslində insanın insandan qaçması insanlığın faciəsidir. Adətən, görmüşük ki, həyatına təhlükədən, vəhşi heyvandan və digər qorxulardan insan qaçıb insana sığınar.

Ancaq birinci Qarabağ müharibəsinə qədər və ondan sonrakı dövrlərdə xalqımız insan maskası geyinmiş dişi qanlı canavarlardan və onların havadarlarından qaçmağa məcbur oldu.






Öz vətənində qərib kimi yaşamağa ad qoymaq mümkün deyil. Məhz buna görə də ikinci bir müharibənin olmasını atalar daha çox istəyirdi. Bir parçasını, ciyərparasını itirməyə, ona ömürlük həsrət qalmağa, qatlanmağın əsas səbəbi düşmən tapdağındakı torpaq, yurd yeri idi. Çünki tapdaq altında qalan torpağın ahı insanı tutur, yaşamaqla ölmək arasında qalıb əzab çəkir...

Biz o əzabdan beş il öncə-sentyabrın 27-də qurtulduq. Vətən, torpaq uğrunda əsl müharibənin, döyüşün həm də humanist dəyərlərlə necə aparıldığını biz illər öncə qanımızın töküldüyünə göz yumanlara göstərdik. Qələbəmizə dost da şahidlik etdi, düşmən də.

Yazımın qəhrəmanı olan polis serjantı Ceyhun Abuşova müharibə atasının qolundan tanışdı. 1992-ci ildə Qarabağ uğrundakı döyüşlərdə qolundan ağır yaralanan Nüsrət Abuşov illər öncə qoluna qoyulmuş milin göynərtisindən indi də yuxu nədir bilmir. Çünki canında nüharibədən nişanə gəzdirənlər üçün müharibə heç vaxt bitmir...

Həmkarımız 1995-ci ildə Masallı rayonunun I Yeddioymaq kəndində doğulub. Masallı rayonundakı 1 saylı tam orta məktəbi bitirib. 2015-ci ilin oktyabrında həqiqi hərbi xidmətə çağırılıb. İntizamlı əsgər olub.

### Güclü ordunun əsgəri idi

Keçirilən təlimlərə əsl müharibə kimi baxıb, şərti döyüş tapşırıqlarını layiqincə yerinə yetirib. Müharibənin yaşamaqla ölüm arasında bir an olduğunu 2016-cı ilin aprelində görüb. Talış kəndi istiqamətində gedən döyüşlərdə fədakarlıq göstərib. 2017-ci ildə ordudan tərxis olunub. 2020-ci ildə könüllü olaraq Vətən müharibəsinə qatılıb. Deyir ki, atamdan adını eşitdiyim, ancaq heç vaxt görmədiyim, olmadığım yerlərdə döyüşmək mənə yuxu kimi gəlirdi. Ordumuz Cəbrayıl, Qubadlı, Zəngilan istiqamətlərində düşmənin canlı qüvvəsini məhv etdikcə və zirehli texnikasını sıradan çıxardıqca mənə elə gəlirdi ki, atamın indi də ağrıyan qolunun, Xocalıda qanına qəltan edilən, min bir əziyyətlə öldürülən körpələrin qisası alınır...

### Bu gün sıramızdadır

Polis olmaq arzusunu belə dilinə gətirir: "Müharibənin gedişində və müharibədən sonra Azərbaycan Polisinin fədakarlığının şahidi oldum. İşğaldan azad olunmuş ərazilərdə asayişin qorunması, digər tədbirlərin həyata keçirilməsi polisə həvalə olunmuşdu. Bütün çətinliklərə baxmayaraq tapşırılan işin öhdəsindən gələn polisin sıralarına qoşulmaq üçün Daxili İşlər Nazirliyinə müraciət etdim. Müraciətimə müsbət yanaşıldı.

Daxili işlər naziri general-polkovnik Vilayət Eyvazovun iştirakı ilə keçirilən sıra baxışında da iştirak etdim. Cənab nazirin Vətən müharibəsi iştirakçılarına xüsusi rəğbətlə və həssaslıqla yanaşması məni daha da ruhlandırdı"...

O, 2021-ci ildə daxili işlər orqanlarına qəbul olunub. Hazırda Nərimanov RPİ Post-Patrul Xidmətinin əməkdaşıdır. Polis serjantı Ceyhun Abuşov antiterror tədbirlərində də iştirak edib.

Həmkarımız Müzəffər Ali baş Komandan tərəfindən "Qubadlının azad olunmasına görə", "Cəbrayılın azad olunmasına görə" və "Vətən müharibəsi iştirakçısı" medalları ilə təltif olunub.

*Hafiz Təmirov*
*polis polkovniki*

# Polis gələcək nəslin keşiyindədir

## Uşaq hüquqlarının qorunmasına xüsusi həssaslıqla yanaşılır

Müasir dünyada uşaq əməyinin istismarı sosial problem kimi ciddi narahatlıq doğurur. Ölkəmizdə də məsələnin aktuallığı nəzərə alınaraq aidiyyəti dövlət qurumları tərəfindən əməli addımlar atılır, uşaq əməyinin istismarının səbəb olduğu halların aradan qaldırılması diqqətdə saxlanılır. Problemin həlli naminə sosial dəstək proqramlarının gücləndirilməsi, təhsilin əlçatanlığının artırılması və qanunların sərt şəkildə tətbiqi bu sahədə mühüm irəliləyiş hesab olunur.

Güclü dövlətçilik ənənələrimizin, gələcək uğurlarımızın davamçısı olan gəncliyin, övladlarımızın sağlam, savadlı inkişafı DİN-in prioritetlərindəndir. Odur ki, bu məsələ polisin də diqqətindədir. DİN Baş İctimai Təhlükəsizlik İdarəsindən qəzetimizə bildirdilər ki, mövcud hallara qarşı qanunamüvafiq tədbirlər həyata keçirilir. Belə ki, daxil olmuş müraciətlər əsasında Daxili İşlər Nazirliyi tərəfindən 2025-ci ilin 6 ayı ərzində 15 yaşına çatmayan şəxsin işlədilməsinə görə bir fakt qeydə alınmış və İnzibati Xətalar Məcəlləsinin 192.8-ci maddəsinə müvafiq olaraq onu işə götürən şəxs inzibati məsuliyyətə cəlb olunmuşdur.

2024-cü il və 2025-ci ilin ilk 6 ayı ərzində isə yetkinlik yaşına çatmayan şəxsin məcburi əməyə cəlb edilməsi ilə bağlı (Cinayət Məcəlləsinin 144-2.3-cü maddəsi üzrə) hər hansı bir müraciət daxil olmamış, cinayət faktı aşkar edilməmişdir.

İnternet resurslarında da uşaqların qanuni mənafelərinə ziyan vura biləcək halların vaxtında qarşısının alınması üçün Daxili İşlər Nazirliyi tərəfindən mütəmadi olaraq yoxlamalar həyata keçirilir. "Uşaqların zərərli informasiyadan qorunması haqqında" qanunvericiliyin pozulması ilə bağlı İnzibati Xətalar Məcəlləsinin 388-1 eləcə də 388-2-ci maddələrinə müvafiq olaraq qanunvericiliyi pozan şəxslər barəsində protokollar tərtib edilir.

*Aytən Tahirova*
*polis kapitanı*

# Təhlükəsizlik qaydalarına əməl edək

## Respublika ərazisində nəzarət-profilaktik tədbirlər davam etdirilir

Yol-nəqliyyat hadisələrinin qarşısının alınması, qəzaların sayının minimuma endirilməsi, bir sözlə hərəkət iştirakçılarının təhlükəsizliyinin təmin olunması qarşıda duran əsas məqsədlərdən biri kimi müəyyən edilib. Sükan arxasında yol hərəkəti qaydalarına əməl edib-etməməklə təkcə özünüzün deyil, ətrafınızdakıların da həyatını dəyişdirə bilərsiniz. Zamana qalib gəlmək üçün artırdığınız sürət sizdən gələcəyinizi, sağlamlığınızı, illərinizi alıb apara, geriyə isə sadəcə yarımçıq bir ömür qala bilər. O ömür tamamlansın, bədbəxt hadisələr




olmasın, qəzalar baş verməsin deyə yollarda sürət ölçən qurğular yerləşdirilib.

Radar sadəcə bir qurğu deyil, qaydalara və insan həyatının qorunmasına xidmət edən texniki vasitədir.

Bugünədək baş verən qəzaların təhlili bir daha onu sübut edir ki, yol nişanlarının tələblərinə məhəl qoymayıb avtomobili sürətlə idarə etmək, yalnız radar qurğularına yaxınlaşan zaman sürəti aşağı salmaq ağır faciələrlə nəticələnən hadisələrə səbəb olur.

Əziz sürücülər! Yaddan çıxarmayaq ki, sürət əksər hallarda həyatınıza həyəcan yox, fəlakət gətirir. Sürətölçən qurğular öz təhlükəsizliyiniz üçün nəzərdə tutulan kəmər, sürət həddini isə həyatınızın qırmızı xətti bilin. Unutmayın ki, bu qurğular həm də sizə "tələsməyin, həyatınız qiymətlidir" mesajını ötürür.

# Daha bir dələduz ifşa olundu

## Özünü humanitar yardım təşkilatının nümayəndəsi kimi təqdim edirdi

Oğuz Rayon Polis Şöbəsinin əməkdaşlarının keçirdikləri tədbirlərlə vətəndaşları aldadaraq onlayn yolla onların maddi vəsaitini ələ keçirən, əvvəllər də analoji əmələ görə dəfələrlə məhkum edilmiş Nəzakət Məhərrəmova saxlanılıb. Şəki regional qrupumuzdan bildirilib ki, o, "Tiktok"dakı "qemgin_20" adlı saxta hesabında canlı yayım açaraq şəhid ailələrinə, qazilərə, eləcə də aztəminatlı şəxslərə özünü humanitar yardım təşkilatlarından birinin nümayəndəsi kimi təqdim edib və əvvəlcədən 1000-2000 manat ödəniş etmələri müqabilində zərərçəkmişlərə il ərzində maddi yardım göstərilməsinə dair yalan vədlər verib. Bu üsullarla N.Məhərrəmova bir neçə vətəndaşın pulunu dələduzluqla ələ keçirib.

Faktla bağlı cinayət işi başlanılıb, araşdırmalar davam etdirilir. N.Məhərrəmovanın analoji əməllərindən zərər görən şəxslər polis orqanlarına məlumat verə bilərlər.

# Oğurluq etmişdilər

## Barələrində araşdırma aparılır

Xəzər rayonunda talama cinayəti qeydə alınıb. Qala qəsəbə sakininin ərazisindən 35 min manat dəyərində günəş panelləri, su mühərriki, samovar və elektrik naqilləri oğurlanıb. Xəzər RPİ-nin 1-ci Polis Şöbəsinin əməkdaşları tərəfindən keçirilən əməliyyat-axtarış tədbiri ilə cinayət əməlini törətməkdə şübhəli bilinən 51 yaşlı İ.Məmmədov, 29 yaşlı A.Eyvazov və 24 yaşlı İ.Bünyadov saxlanılıblar. Faktla bağlı araşdırma aparılır.

# Meşədə narkotik əkirdi

## Ağdam sakini Şəkidə saxlanıldı

Şəki Şəhər Rayon Polis Şöbəsinin əməkdaşları tərəfindən narkotik vasitələrin satışı və kultivasiyasına qarşı əməliyyat keçirilib. Şəki regional qrupumuzdan bildirilib ki, tədbirlərlə Ağdam rayon sakini, 32 yaşlı Pərvin Məhərrəmzadə saxlanılıb. Onun rayonun Çolaqlı kəndindəki meşəlik ərazidə narkotik tərkibli bitkilər əkib-becərdiyi müəyyən edilib. Həmin yerə baxış keçirilərkən çəkisi 50 kiloqram olan 33 ədəd çətənə kolu və satış məqsədilə orada saxladığı 8 kiloqram marixuana aşkarlanıb.

Saxlanılan şəxs narkotik tərkibli bitkiləri qazanc əldə etmək məqsədilə əkdiyini və xüsusi qulluq göstərdiyini bildirib. Məhkəmənin qərarı ilə P.Məhərrəmzadə barəsində həbs qətimkan tədbiri seçilib. Əməliyyat-istintaq tədbirləri davam etdirilir.

# Xalis çəkisi 33 kiloqram…

## İran vətəndaşının toruna düşdülər

DİN-in Baş Narkotiklərlə Mübarizə İdarəsinin əməkdaşları tərəfindən paytaxtın Sabunçu rayonu və Mingəçevir şəhərində keçirilən əməliyyatlar zamanı əvvəllər məhkum olunan Bəhruz Mustafayev, Neyman Əmirov və Nadiq Abbasov saxlanılıblar. Onlardan 33 kiloqram tərkibinə zərərli maddələr əlavə edilmiş marixuana aşkarlanıb. Saxlanılanların şəxsiyyəti istintaqla araşdırılan İran vətəndaşı ilə cinayət əlaqəsinə girərək narkotik vasitələri əldə etdikləri və satış məqsədi ilə əvvəlcədən təyin edilən nöqtələrə yerləşdirməyi planlaşdırdıqları məlum olub.

Faktla bağlı cinayət işi başlanılıb, hər 3 şəxs barəsində məhkəmənin qərarı ilə həbs qətimkan tədbiri seçilib. Əməliyyatlar davam etdirilir.

# Oğrular ələ keçdi

## Aralarında keçmiş məhkum da var

Abşeron rayonunda oğurluq hadisələri qeydə alınıb. Naməlum şəxs ayrı-ayrı vaxtlarda rayon ərazisində iki vətəndaşa məxsus avtomobildən mobil telefonlar və məişət əşyaları oğurlayıb.

Abşeron Rayon Polis İdarəsinin əməkdaşları tərəfindən keçirilən tədbirlə cinayət əməllərini törətməkdə şübhəli bilinən 22 yaşlı S.Rəcov müəyyən olunaraq saxlanılıb. Nizami RPİ-nin 25-ci Polis Şöbəsinin əməkdaşları tərəfindən keçirilən tədbir zamanı isə paytaxt sakinini aldadaraq telefonunu ələ keçirən və onun mobil tətbiqindən 1450 manat pul oğurlayan əvvəllər məhkum olunmuş 33 yaşlı C. Yusifova da saxlanılıb.

Faktlarla bağlı araşdırmalar aparılır.

# Amerikanın ilk qadın detektivi

## Keyt Vorn adı hüquq-mühafizə orqanları tarixinə qızıl hərflərlə yazılıb

Köləliklə mübarizə aparan və qadınların seçki hüququ belə əldə etmədiyi Amerikada, 1856-cı ildə bir qadının detektiv olmaq istəyi indikindən fərqli olaraq o dönəm üçün alçatmaz idi. Daha doğrusu, onu arzu etmək, xəyalını belə qurmaq reallıqlarla üst-üstə düşmürdü. Ancaq gələcək hər bir uğurlu başlanğıcın çətinliklərdən keçdiyini göz önünə alan Keyt Vorn adlı qadın arzusunu gerçəkləşdirmək üçün cəmiyyəti heyrətə gətirən və özündən sonra neçə-neçə davamçıya ruh verən inad sərgilədi. Onun adı bu gün ABŞ tarixində ilk qadın detektiv kimi çəkilir.



### Elan kişilər üçün idi...

Allan Pinkerton tərəfindən qurulan məşhur "Pinkerton National Detective Agency" yeni və bacarıqlı detektivlərin axtarışında idi. Agentlik tərəfindən verilən xüsusi elanda isə "yalnız kişi" namizədlərə üstünlük veriləcəyi açıq şəkildə bildirilirdi. Ancaq günlərin birində ofisə bir qadın daxil oldu. O, soyuqqanlı və özünə inamlı şəkildə detektiv olmaq üçün gəldiyini dedi. Bu gəliş Pinkertonu təəccübləndirsə də o, təmkinini pozmadı və elanda yazılanları Keyt Vorna yenidən xatırlatdı. Bir xeyli söhbətdən sonra Keyt onu inandırdı ki, qadınlar cinayətlərin üstünün açılmasında, onların istintaqında, şübhəlilərin tapılmasında, izlənilməsində kişilərdən geri qalmır, əksinə bəzi hallarda daha çox informasiya toplaya bilirlər.

Bu söhbətdən sonra Pinkerton onu işə qəbul etdi.Beləliklə, Keyt Vorn 1856-cı ildə Amerikanın ilk qadın detektivi oldu. O dövr üçün bu, inqilabi bir hadisə idi.

Vorn şübhələri üzərinə çəkmirdi. O, məxfi tapşırıqları asanlıqla yerinə yetirə bilirdi. Şübhəlilərlə yaxın dostluq əlaqəsi quraraq qiymətli məlumatlar toplayırdı. Cinayətkarlar ona "sadəlövh bir qadın" kimi yanaşdığından açıq danışır, planlarını bölüşürdülər. Onun bu bacarığı saysız cinayətin açılmasında həlledici rol oynadı. Qadın təqsirləndirilənlərlə və şahidlərlə daha asan emosional bağ qurduğundan, onlardan etiraf və ya vacib ipucları almaqda daha müvəffəqiyyətli idi.

### Abraham Linkolnun həyatını xilas etmişdi

1861-ci ildə ABŞ prezidenti Abraham Linkolnun Baltimor şəhərinə səfəri zamanı Keyt Vorna məlumat çatır ki, prezidentin həyatına sui-qəsd planı hazırlanıb. Vorn özünü cənublu zadəgan qadın kimi təqdim edərək təhlükəni sovuşdurur. Çünki onun topladığı məlumatlara əsasən Linkolnun səfər marşrutu dəyişdirilir və Prezident gizli şəkildə qatarla başqa yoldan Vaşinqtona çatdırılır. Pinkerton sonradan bu fədakar detektiv qadın haqqında belə yazmışdı: "Onun cəsarəti olmasaydı, bəlkə də Amerika tarixində ən qaranlıq səhifələrdən biri yaşanacaqdı."

### Onun mirası...

Vorn təcrübəsini, savadını bölüşmək üçün Pinkerton Agentliyində qadın detektivlərdən ibarət ayrıca bir bölmə yaratmışdı. Bu, o dövr üçün qeyri-adi və qabaqcıl yanaşma idi. Onun rəhbərliyi ilə qadın detektivlər bir çox gizli əməliyyatlarda, casus şəbəkələrinin aşkar edilməsində iştirak edir, sənaye casusluğunun qarşısını peşəkarlıqla alırdılar. Qadınların hüquq-mühafizə sistemindəki uğurlu fəaliyyəti Vornun adı ilə bağlıdır desək, yanılmarıq...

Təəssüflər olsun ki, bu cəsur qadın 1868-ci ildə 35 yaşında xəstəlik səbəbilə həyata vida etmişdir. O, ölümündən sonra Pinkerton ailəsinin qəbiristanlığında dəfn olunmuşdur. Bu, onun xidmətlərinə verilmiş dərin ali hörmətin və diqqətin göstəricisi idi.

Keyt Vorn yalnız bir detektiv deyildi. O, cəmiyyətə "qadın da bacarar, ən çətinin öhdəsindən gələr" deyə hayqıran, qadın hüquqları uğrunda mübarizənin simvolu idi.

*Aytən Tahirova*
*polis kapitanı*

# Polis təbiətin keşiyindədir

## Ekologiyanın qorunması da prioritet kimi müəyyənləşib

Bu günlərdə daxili işlər naziri general-polkovnik Vilayət Eyvazovun onlayn formatda keçirdiyi əməliyyat müşavirəsində məhz yanğın təhlükəsizliyi məsələsinə xüsusi önəm verdiyi diqqətimdən yayınmadı.

Havaların həddindən artıq isti və quraq keçməsi meşələrdə və digər ərazilərdə yanğın təhlükəsi riskini artırdığından qabaqlayıcı tədbirlərin görülməsinin vacibliyi barədə Daxili İşlər Nazirliyinin aidiyyəti xidmət rəhbərlərinə, işğaldan azad olunmuş rayonların rəislərinə verilən tapşırıqlar sözün əsl mənasında həyati əhəmiyyətli idi. İzlədiyim sonrakı proseslərdə yanğına qarşı mübarizə tədbirlərinin gücləndirilməsinin, monitorinqlərin keçirilməsinin, vətəndaşlar arasında odla ehtiyatsız davranmanın ağır nəticələrə yol açacağı barədə geniş maarifləndirmə işlərinin aparılmasının uğurlu nəticələrinin bir daha şahidi oldum. Bilərəkdən və ya ehtiyatsızlıqdan yanğın törədənlər barəsində qanunamüvafiq tədbirlərin görülməsi də ictimai fikirdə polis haqqında müsbət imic formalaşdırdı.

Çünki polis haqlı idi və onun qəbul etdiyi qərar öncə insan həyatının, sonra təbiətin qorunmasına yönəlmişdi.

Azərbaycan təbiəti – minilliklərin yadigarı olan meşələrimiz, dağlarımız, çaylarımız, Xəzər dənizi, bir sözlə, bənzərsiz biomüxtəlifliyimiz xalqımızın milli sərvətidir. Bu sərvətin qorunması hər bir vətəndaşın borcu olmaqla yanaşı, dövlətimizin qarşısında duran mühüm vəzifələrdən biridir.

Diqqət çəkmək istədiyim əsas məqamlardan biri də ölkəmizdə ekoloji təhlükəsizliyin təmin olunmasında, təbii sərvətlərin qorunmasında və ətraf mühitə zərər vuran qanunsuz əməllərlə mübarizədə polisin fəal iştirakıdır. Bu qanunvericiliyə söykənən vəzifə inzibati fəaliyyətlə məhdudlaşmır. Burada vətəndaş yanaşması da mühüm faktor kimi önə keçir və polis ekologiyanın qorunması məsələsində həm də vətəndaş olaraq peşəkar və məsuliyyətli yanaşma sərgiləyir.

Bu gün qanunsuz ağac kəsilməsinə, nadir heyvanların ovlanmasına, sənaye tullantılarını təyin olunmuş yerlərə atmamaqla təbiətə ziyan vuranlara qarşı aparılan mübarizədə polis orqanlarının çevik müdaxiləsi və qanuni tədbirləri ekoloji balansın qorunmasına mühüm töhfə verir.

Bu istiqamətdə polisin ən böyük dəstəyi ictimai nəzarətdir. Onun gücləndirilməsi vacib məsələdir. Təbiəti qorumaq imkanlarımız çox genişdir. Ən əsası təbiəti qorumaq yolunda hər kəs öz vətəndaş mövqeyini ortaya qoymalı, möhtərəm Prezidentimiz cənab İlham Əliyevin ötən il elan etdiyi "Yaşıl dünya naminə həmrəylik ili"ndə qarşıya qoyulan vəzifələrin davamı olaraq ölkəmizdə ekologiyanın qorunması üçün bu sahəyə diqqəti artırmalı və hüquq-mühafizə orqanlarına kömək etməliyik.

Ekoloq və bir Azərbaycan vətəndaşı kimi polisin cinayətkarlıqla qətiyyətli mübarizəsini və təbiətimizi qorumaq üçün atdığı önəmli addımları yüksək qiymətləndirir, çətin və şərəfli xidmətlərində uğurlar arzulayıram.

Azərbaycanımızı sabitlik adası kimi qorumaq, yaşıllıqlar diyarına çevirmək üçün hər birimiz Polisimizə dəstək olmalı, onun fədakar xidmətini alqışlamalıyıq.

*Bəxtiyar Hüseynov*
*ekoloq*

# Bizim yurd yerimiz...

## Adları belə tariximizin bir parçasıdır

Tarixi minillikləri keçən Azərbaycanımızın Şərqi Zəngəzur mahalı öz təbii-coğrafi mövqeyinə, zəngin fauna və florasına görə diqqətçəkən məkanlardan biridir. Bu qədim mahalın tərkibində formalaşan Mehri rayonunun Aldərə kəndi də axarlı-baxarlı bir yerdə qərar tutur. Rayon mərkəzindən 12 km məsafədə, Araz çayının sol sahilində olan Aldərə kəndində XIV-XVI əsrlərə aid albanlarla bağlı tarixi abidələrin qalıqları müasir dövrümüzə qədər gəlib çatmışdır. Kəndin salındığı ərazinin torpağı qırmızı olduğu üçün Aldərə adlandırılmışdır.

Relyef əsasında yaranan toponimdir. Həmin ərazidə eyni adlı göl də olmuşdur. Əhalisi azərbaycanlılardan ibarət olan bu kəndin sakinləri 1918-ci ildə ermənilər tərəfindən qovulmuş, lakin 1926-cı ildə geri qayıtmışlar. 62 il sonra - 1988-ci ilin noyabr ayının sonlarında Ermənistan dövləti tərəfindən tarixi - etnik torpaqlarından yenidən deportasiya olunub.

Kənd sakinlərinin əsas təsərrüfatını əkinçilik və heyvandarlıq təşkil edirdi. Burada dövrü və zamanı üçün yaxşı təhsil alıb ölkəmizdə tanınan tanınmış şəxsiyyətlər çoxluq təşkil edir. Xeyriyyəçi Fərəc bəy Hüseynbəyov, Sosialist Əməyi Qəhrəmanı Firudin Ağayev (1882-1959), yazıçı-publisist, H.Zərdabi mükafatçısı, Azərbaycan Yazıçılar Birliyinin üzvü, şairə Gülzar İbrahimova (1943), Azərbaycan SSR Mədəniyyət naziri olmuş Məmməd Qurbanov və s. misal göstərmək olar.

Aldərə kəndi vətənimizin bir parçası, tariximizi özündə yaşadan qədim yurd yerlərimizdəndir. İnanırıq ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin qətiyyətli mövqeyi, uğurlu siyasəti nəticəsində yaxın zamanlarda Mincivan-Culfa dəmiryolu tikiləcək və bu yol Aldərə kəndinə də xoşbəxtlik gətirəcək.

# "Təmiz hava" aylığı

## Sürücülər maarifləndirilib

Naxçıvanda da polis əməkdaşları tərəfindən "Təmiz hava" aylığı tədbiri keçirilib.

Naxçıvan şəhərindəki avtovağzal kompleksində və avtobus parkında xüsusi cihaz vasitəsilə daxiliyanma mühərrikli nəqliyyat vasitələrindən çıxan qazların tərkibindəki zərərli maddələrin miqdarı ölçülüb.

Normadan artıq zəhərli qaz ixrac edən ictimai nəqliyyat vasitələrinin sürücüləri ilə maarifləndirici söhbətlər aparılıb, nəqliyyat vasitələrindən atmosferə normadan artıq zəhərli qaz buraxmasına səbəb olan nasazlıqların dərhal aradan qaldırılması tövsiyə olunub.

Qeyd olunub ki, ətraf mühitə atılan tullantılarda müəyyən edilmiş normadan artıq çirkləndirici maddələr olan avtomobillərin idarə olunmasına və onların istismara buraxılmasına yol verən fiziki və hüquqi şəxslər qanunvericiliklə müəyyənləşdirilən qaydada məsuliyyət daşıyırlar.

# Dünyanın ən güclüsü

## O, bayrağımızı ucaldıb, himnimizi səsləndirib

Azərbaycanın yunan-Roma güləşçisi Ayxan Cavadov Bolqarıstanın Samokov şəhərində keçirilən U-20 dünya çempionatının qalibi olub. Tatamiyə 60 kiloqram çəki dərəcəsində çıxan idmançımızın rəqibləri Misir, Polşa, Türkiyə, Gürcüstan təmsilçiləri olub. Onları döşəkdə böyük xalla məğlub edən Ayxan həlledici qarşılaşmada ermənistanlı Yurik Mxitaryanla üz-üzə gəlib. Rəqibini 12:5 hesabı ilə məğlub edən A.Cavadov dünya çempionatında qızıl medal qazanıb.

Qeyd edək ki, çempionumuz DİN İdman Cəmiyyətinin yetirməsidir.

# Dünyanın maraqlı qanunları

## Həyatımızı onlara uyğunlaşdıraq

Zaman-zaman müxtəlif sahələrdə müşahidə olunan vəziyyətlərə uyğun olaraq formalaşan bəzi qanunlar var ki, bu gün onlar dünyaca məşhurdur və bir çox insanın həyatında özünü təsdiqləyib. Gəlin bu qanunlara daha yaxından nəzər salaq:

### 1.Mörfi Qanunu

"Əgər bir şeyin baş verməsindən nə qədər qorxursunuzsa, onun baş vermə ehtimalı bir o qədər artır." Bu qanun həyatın bəzən nə qədər ironiya ilə işlədiyini göstərir. Yəni, bir şeyin pis getməsini çox düşünürsünüzsə, bəzən elə bil həyat sizi "sınağa çəkir" və o hadisə baş verir. Mörfi Qanunu gündəlik həyatda, texnologiyada, insan münasibətlərində tez-tez özünü göstərir.

### 2.Kidlin Qanunu

"Əgər bir problemi aydın və dəqiq şəkildə yaza bilirsinizsə, deməli, siz artıq problemin böyük hissəsini həll etmisiniz." Bu qanun göstərir ki, problemi başa düşmək və onu düzgün şəkildə ifadə etmək onun həllinə doğru atılmış ən böyük addımdır. Aydın düşüncə aydın həllə aparır.

### 3.Gilbert Qanunu

"Əgər siz bir işi öhdənizə götürmüsünüzsə, o işdə uğur qazanmağın ən yaxşı yollarını tapmaq sizin şəxsi məsuliyyətinizdir." Bu prinsip məsuliyyət hissini ön plana çəkir. Kiminsə tapşırığını yox, öz məsuliyyətinizi yerinə yetirirsinizsə, nəticə sizin bacarığınızdan və səylərinizdən asılıdır.

### 4.Uilson Qanunu

"Əgər siz biliyə və ağıla üstünlük verirsinizsə, pul özü sizi tapacaq." Bu qanun deyir ki, əsas dəyər pul yox, bilik və zəka olmalıdır. Biliyə sərmayə qoyan insanlar gec-tez uğur və qazanc əldə edirlər.

### 5. Folkland Qanunu

"Əgər bir məsələ ilə bağlı qərar vermək məcburiyyətində deyilsinizsə, qərar verməyin." Bu prinsip insanlara lazımsız qərarlar verməkdən çəkinməyi tövsiyə edir. Bəzən səbirli olub gözləmək, daha doğru qərar verməyə səbəb ola bilər. Hər suala dərhal cavab vermək lazım deyil.

POLIS
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb səhifələnmiş və DİN-in Mətbəəsində çap edilmişdir.
Qəzet həftədə bir dəfə çıxır. Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır.
Qəzetdə gedən materiallardan istifadə edərkən redaksiyadan razılıq alınmalı və "Polis"ə istinad olunmalıdır.
REDAKTOR: HAFİZ TƏMİROV
Qeydiyyat № 4326. İndeks: 66993
Sayı 11454
Ünvanımız: Az 1005: Bakı şəh. "Azərbaycan" prospekti 7
Məlumat üçün telefonlar: 590-95-69; 590-99-55; 590-99-30
E-poçt: metbuat@mia.gov.az
Qiyməti 40 qəpik